UOT 746.677.687.1

**Aytən Xaqani qızı Hüseynova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Müəllim**
**E-mail: aytan.1981@mail.ru**

# GEYİMDƏ VİZUAL İLLÜZİYA

**Xülasə:** Məqalədə son illərdə həyatın bütün sahələrində geniş yayılan vizual illüziyanın qiyafətlərdə də insan vücudunu daha estetik göstərmək üçün istifadə zamanı yaratdığı təsirlərindən bəhs edilmişdir. Bu məqsədlə geyim dizaynında nəzərə alınmalı olan əsas amillər – rənglər, xətlər və parçanın teksturası haqqında konkret məlumat verilmiş, vücud tiplərinə görə istifadə qaydaları haqqında qısa və lakonik informasiyalar qeyd edilmişdir.

**Açar sözlər:** qiyafət, dəb, vizual illüziya, geyim dizaynı

Geyim insanın vücuduna uyğunluğu və onun rahat hərəkətini təmin etməsi ilə yanaşı, estetik görünüşə sahib olması baxımından da böyük əhəmiyyət daşıyır. Qiyafətin estetik və funksional xüsusiyyətləri həmin geyimin uyğunluq dərəcəsi ilə bağlıdır. Əksər qadınlar dünyanın ən uğurlu geyim dizaynerləri tərəfindən geyindirilsə belə, modellər bədən quruluşuna uyğun gəlmədikdə uğurlu nəticələr əldə edilmir. Vücuda uyğun rəng, naxış və aksesuar seçmək üçün bədən quruluşunu bilmək vacibdir. Geyim üçün parça, model və rəng seçərkən bədənin gözəl hissələrinə diqqət yetirilməli, qüsurlu tərəflər gizlədilməlidir. Modelin detalları elə seçilməlidir ki, nəzərlər heç bir nöqtədə ilişmədən rahat hərəkət etsin və yaxud qüsurları gizlətmək üçün bir nöqtədə sabitləşsin. Bu, daha çox motivlər, xətlər, kəsiklər, formalar, rənglər, tikiş növləri, düymələr kimi müxtəlif nüans, texnika və ornamentlərdən istifadə etməklə əldə edilir.

Vizual illüziyanı həyatın bütün sahələrində istifadə etmək mümkündür. Gözü aldadıb insanı daha incə və ya zəif göstərən olduqca gözəl qiyafətlər layihələndirilə bilər. Bu tip qiyafətlərin əsasən yan hissələri qara rəngdə olaraq həyata keçirilir. Çünki bu xüsusi geyimlər əsasən gecə ziyafətlərində istifadə ediləcəyi üçün yan hissələrdəki artıq kilolar gecə qaranlığının arxa planı ilə əlaqələndirilərək itirilmək məqsədi daşıyır. Bu zaman baxan nəzərlər yanlardakı qara ton yerinə, ortadakı daha açıq rəngə yönəlir və həmin insanı sanki o açıq rəng olan hissədəki incə vücuda sahib kimi hissiyyat yaradır. Gündüz, işıqlı bir mühitdə isə tam əks rənglər istifadə edilir. Bu tipli qiyafətlərdə daha incə, daha zərif, hətta daha uzun boylu kimi görünüş yaratmaq mümkündür.

Geyinərkən olduğundan daha uzun və zərif görünməyi kim istəməz? Seçdiyimiz qiyafətlərin üzərimizdə ən gözəl şəkildə yaraşması üçün nələr etmək mümkündür? Vücud tipini mükəmməl əks etdirən geyim hansıdır? Bəli, bütün bu sualların cavabı "vizual illüziyada" gizlənir.

Vizual illüziya anlayışı, həyatın hər bir sahəsində istifadə edildiyi kimi, geyim stillərində də geniş tətbiq edilir. Üstəlik doğru tətbiq edildiyi zaman möhtəşəm siluetlərin meydana çıxması danılmazdır. Vizual illüziya optik olaraq qavradığımız görüntülərin, obyektiv reallıqdan ayrı vəziyyətlərdə istifadə edilən bir termindir. Bu real bir obyektin hisslər üzərindəki təəssüratlarının beyin tərəfindən yanlış dəyərləndirilməsi kimi də qəbul edilə bilər [2].

Vücud tipi hər necə olursa olsun, doğru stil üsulları ilə daha uzun və incə siluetə sahib olmaq əlbəttə ki, mümkündür. Vizual illüziya dediyimiz anlayış məhz bu nöqtədə dövrəyə girərək vücudun qüsurlu bölgələri kamuflyaj edərək boyu uzun, kilonu isə daha az göstərərək realda olduğundan daha fərqli, eyni zamanda gözəl bir siluetdə görünməyi təmin edəcəkdir.

Ümumiyyətlə, geyim dizaynında nəzərə alınmalı olan əsas amillər bunlardır: rənglər, xətlər və parçanın teksturası.

Uzun bir siluet üçün iki əsas qayda mövcuddur. Bunlardan biri "ton sur ton", yəni, bir-birinə yaxın rənglərin açıqdan tündə doğru birlikdə verilməsi, digəri isə monoxrom geyinməkdir. "Ton sur ton" və monoxrom geyim əslində bir-birlərinə yaxın stillərdir. Daha dəqiq müəyyənləşdirməli olsaq, bunu bir rəngin fərqli tonlarının eyni kombində yer alması kimi də qeyd edə bilərik. Lakin monoxrom geyim, ton sür tondan fərqli olaraq, zolaqlı naxışlar, iki rəngli kombinlər, xüsusilə də qara və ağın klassik harmoniyasının kombinlərdə istifadəsi kimi xüsusiyyətlərə malikdir. Bir rəngin fərqli tonlarının eyni kombin üzərində istifadəsi isə hər zaman bir insanı olduğundan daha hündür göstərəcəkdir. Belə ki, siluet tək bir rəng ilə həll edildiyi və buna görə də bir bütün olaraq göründüyü üçün, onun vizual illüziya sayəsində olduğundan daha uzun təsir bağışlaması qaçılmazdır. Əsasən də ayaqqabı və corabların da seçilən rəngin tonlarında istifadəsi vizual illüziyaya təsir göstərir. Açıq və tünd rənglərin əlaqələndirməsində meydana gələn kontrast panel libaslar ilk dəfə İngiltərənin məşhur geyim üzrə dizayneri Stella Nina Mak Kartney tərəfindən 2011-ci ilin payız-qış kolleksiyasında yer alaraq, daha sonra bütün moda dünyasında məşhurlaşmağa başlandı. En az iki ölçü bədənin daha incə görünməsinə imkan yaradacaq olan bu qiyafətlər, olduqca fərqli bir görünüşə malik idilər. Panel libaslardakı tünd rənglər, üzərinə gələn hissələri daha formada göstərərkən, geyimin açıq rəngli qisimləri vizual illüziya təsiri yaradaraq daha incə bir siluet ilə görünməyə imkan yaradacaqdır. Onu da qeyd edək ki, panellərin şaquli olması eyni zamanda olduğumuzdan daha hündür görünmənin əsas səbəbidir.

Xətt dizayn sahəsində mühüm yer tutan nüansdır. Gözün qavradığı bir ölçülü uzunluq simvoluna xətt deyilir. Xətt həndəsi xarakterinə görə düz, əyri və kəsik olaraq üçə bölünür ki, burada modelyer seçdiyi model üçün ən uyğun olanın müəyyənləşdirməlidir. Geyimlərdə xətdən bəzən libasın bir hissəsi və ya ana xətti kimi, bəzən də ara sahələri bölən stil xətləri kimi istifadə edilə bilər. Geyim dizaynında xətt elementi libasın ümumi görünüşü və üslubu haqqında məlumat verir. Məlumdur ki, zolaqlar geyimdə istifadə olunduqları ölçü, aralıq, ton, istiqamət kimi növləşmə intensivliyindən asılı olaraq bəzi optik illüziyalar yaradır. Məsələn, düz xətlər uzununa istifadə edildikdə görünüşü uzadır, eninə xətlər isə görünüşü kəsərək daha geniş göstərir. İstifadə olunan xətlərin sayı, onların incəliyi, qalınlığı, xətlər arasındakı məsafə və yaxınlıq görünüşə fərqli təsir göstərir.

Xəttin getdiyi istiqamətdə göz xətti izləyir və keçdiyi bölgəni bölümlərə ayırır, beləliklə boşluqda bir qırılma nöqtəsini təmin edir. Bəzən bir forma və ya silueti təsvir etdiyi kimi, bəzən də əhval-ruhiyyəni və ya xarakteri bildirir. Xətt hündürlük və en kimi vizual illüziyalarla vücudu daha incə və ya qalın göstərir. Dizayn sahəsindəki hər bir yeni yanaşma fərqli cərəyan və ya üslub kimi qəbul edilsə də, onların istifadə etdiyi prinsiplər əsasən eynidir. İnsanın necə gördüyünü və vizual olaraq onu bir bütün olaraq qavradığını araşdıran Gestalt Psixologiya Məktəbinin bir sahədə əldə etdiyi nəticələr, dizayn prinsiplərini müəyyən edən əsas amillərdəndir. Geyim dizaynı sahəsi də bir çox sahələrdən bəhrələnir. Psixologiya da bu fənlər arasındadır. Psixologiyada qavrayış nəzəriyyələri arasında geyim dizaynı sənəti ilə ən yaxından əlaqəli olan nəzəriyyə Gestalt nəzəriyyəsidir. 1900-cü illərdə alman və avstriyalı psixoloqlar tərəfindən təqdim edilən Gestalt konsepsiyası əsasən insan gözünün vizual təcrübələri necə təşkil etdiyini və qəbul etdiyini araşdırır. Gestalt nəzəriyyəsinə görə qavrayışın təşkilində köməkçi prinsiplər bunlardır: şəkil-zəmin münasibəti, yaxınlıq prinsipi, oxşarlıq prinsipi, tamamlama prinsipi, davamlılıq prinsipi, sadəlik prinsipi və praqnanz.

İnsanın göz quruluşundakı kor nöqtə bəzən beynin optik sinirlərdən gələn siqnallarının səhv birləşdirməsinə səbəb ola bilər. Buna görə də, gözlər və beyin həqiqəti görməyə çalışarkən, illüziyalara da səbəb ola bilər. Bu, görünənlərin yanlış təfsirinə gətirib çıxarır. O qədər səhv qavrayış şərhləri var ki, beyin onların psixologiyada “idrak illüziyaları” və ya “optik illüziyalar” deyə ifadələr meydana çıxır. Parlaqlıq və kontrast, hərəkət, perspektiv, üçölçülü təsvirlərin şərhi, koqnitiv vəziyyətlər və rəng kimi bəzi amillərdən asılı olaraq optik illüziya formalarının olduğunu söyləmək olar. Başlanğıc və bitiş nöqtələrinə əlavə edilmiş qırıq xətti strukturlar hesabına bərabər ölçülərdə olan xətlər müxtəlif ölçülərdə qəbul edilir. Mükəmməl bədən təəssüratı yaratmaq üçün geyimdə xəttin istifadəsi optik illüziyaların yaradıl-

masında mühüm açar rolunu oynayır və bu yaradılışa rəng və səth də kömək edir. Məşhur alman psixoloqu Müller Lyer geyimdə illüziya haqqında belə qeyd etmişdir: "hər iki ucunda bucaqlı (diaqonal) uzantıları olan bir xətt yenidən geriyə doğru çevrildiyində uzunluq xəttindən daha uzun görünür" [1].

Dəbin müəyyənləşdirilməsində aparılan araşdırmaların hər birində olduğu kimi geyim dizaynını da doğru istiqamətləndirən ən əhəmiyyətli nüans yaradıcılıqdır. Güclü bir yaradıcılıq görünüşün və estetikliyin ön planda tutulması ilə reallaşır. İnsanların fərdilikləri, geyim seçimində və geyim dizaynında diqqət edilməsi lazım olan ən vacib nöqtədir. Fərqli vücud tiplərində qiyafət seçimləri edərkən, bədən xüsusiyyətlərinin diqqətdə tutulması, vücud formasına uyğun ölçüdə və rəngdə, vizual illüziyalar nəticəsində meydana çıxa biləcək estetiklik düşünülərək geyim dizaynın həyata keçirmək lazımdır. Məsələn, moda aləmində 70-ci illərin trendi olan yüksək belli, geniş biçimli şalvarlar günümüzdə də çox populyardır. Ayaqlar qısa, lakin bədən uzundursa bu zaman bədən nisbətini tarazlaşdırmaq üçün bu şalvardan istifadə etmək məqsədəuyğundur. Unutmamalıyıq ki, bədən nisbətinə uyğun olmayan libaslar bizi olduğumuzdan daha qısa və zövqsüz göstərəcək.

Daha incə və zərif görünmək üçün əsas maddələri nəzərdən keçirək. İlk olaraq boyun bölgəsinə diqqət edək. Qısa olan boynu daha uzun göstərmək "V" və ya "U" yaxa qiyafətlərdən istifadə edilməlidir. Əksinə, boyun daha uzundursa boğazaqədər bağlı olan, bəzən "velosipedçi və ya yarım balıqçı" deyə adlandırılan yaxalı qiyafətlər daha məqsədəuyğun hesab edilir.

İkinci maddə çiyinlərdir. Təəssüf ki, kişilərdə üstünlük hesab edilən geniş çiyinlər, qadınlarda qüsur hesab edilir. Vizual illüziya yaratmaqla yenə də "V" və ya "U" yaxa qiyafətlərdən istifadə edilməsi, çiyin yastıqlarından isə mümkün qədər uzaqlaşmaq doğru olar. Dar çiyinləri bir qədər geniş göstərmək üçün isə tək qollu qiyafətlər, həmin hissədə parıltı, fırfırlı və qıvrımlı detallar köməyimizə çatacaqdır.

Üçüncü olaraq kiçik sinələri daha böyük göstərmək üçün straplez kəsiklərdən, dairəvi boyunlardan, üfüqi xətlərdən, fırfırlardan, sinə üstü ciblərdən, teksturalı parçalardan, qısa gödəkcələrdən istifadə etmək tövsiyə edilir. Böyük sinələr üçün isə bədənin yuxarı hissəsində tutqun və tünd rənglər, şaquli zolaqlar, V dekolteli, axan parçalardan istifadə etmək daha uyğundur.

Bel. Uzun boyunbağılar, bel nahiyəsində V yaradan paltarlar, draped parçalar vasitəsilə vizual illüziya yaradaraq bel sahəsində artıq olanı gizlədə bilərsiniz. Hətta, incə beli olan şanslı insanlardan biri olsanız belə, belinizi vurğulayacaq kəmərli, bədənə uyğun paltarlar seçməlisiniz.

Omba. Bu hissənin böyük görünməməsi üçün aşağıya doğru daralan şalvar və ya qələm ətəklər seçilməməlidir. Bunun əvəzinə, ombanın ən geniş hissəsindən aşağıya doğru enən şalvarlar və yaxud "A" kəsim ətəklərə üstünlük verilməlidir.

Şübhəsiz ki, seçilmiş çanta, stili tamamlayan ən əhəmiyyətli aksessuardır. Lakin əksəriyyət qiyafətə görə və ya fərdi zövqə bağlı olaraq seçim edər. Qeyd edək ki, çanta seçimi qüsurlarımızı gizlədən və vizual illüziya texnikasından faydalana bilən güclü bir elementdir. Əgər kiçik bədən tipinə sahibsinizsə, mütləq böyük ölçülü çantalardan çəkinməlisiniz. Kiçik çantalar ilə incə görünməyiniz qaçınılmazdır. Vizual illüziya üçün klac tipli çantalar incə xanımlar üçün daha idealdır.

Optik illüziyada bizə fayda verəcək digər bir joker element kəmərdir. Təbii ki, kəmərlərdən düzgün istifadə etməklə həm hündür, həm də arıq görünmək mümkündür. Beldən bir az yuxarı istifadə edilən ensiz kəmər beli vurğuladığı, bel və ayaq nisbətlərini tarazladığı üçün vücudu daha hündür göstərməyə imkan yaradacaq.

**Ədəbiyyat siyahısı:**

1.Müller Lyer Optik Yanılsama Etkisinin Elbisede Kup Açısından İncelenmesi// Beynəlxalq mədəniyyət və sosial araşdırmalar jurnalı, 10.07.2017. səh. 494-508.
2.Современная энциклопедия. Мода и стиль / под ред. Виктор Володин. Москва, ”Астрель”, 2008. 480 стр.
3.Пармон Ф.М. Композиция костюма. Москва. «Легпромиздат», 1985
4.Козлова Т.В. Основы теории проектирования костюма. Москва. «Легпромиздат», 1985.
5.https://www.aysha.com.tr/giyimde-optik-illuzyon-etkisi/

**Айтен Хагани кызы Гусейнова**

## ВИЗУАЛЬНАЯ ИЛЛЮЗИЯ В ОДЕЖДЕ

**Резюме:** В статье говорится о последствиях зрительной иллюзии, получившей широкое распространение во всех сферах жизни в последние годы, когда ее используют для более эстетичного показа человеческого тела в костюмах. Для этого дана конкретная информация об основных факторах, которые следует учитывать при проектировании одежды - цвете, линиях и фактуре ткани, даны краткие и емкие сведения о правилах ношения по типам телосложения.

**Ключевые слова:** маскировка, мода, визуальная иллюзия, дизайн одежды.

**Ayten Khagani gizi Huseynova**

**VİSUAL İLLUSİON İN CLOTHİNG**

**Summary:** The article is dedicated to the effects of the visual illusion, whichhas widely spread in all areas of life in recent years, when it is used to show the human body more aesthetically in costumes. For this purpose, the specific information about the main factors that should be taken into account in clothing design - colors, lines and texture of the fabric - have been given and according tobody types short and concise information about the rules of use has been mentioned.

**Key words:** clothing, fashion, visual illusion, clothing design

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**